Paytaxtın Nəsimi rayonu yeniləşmə və tərəqqi yolunda

❒ ***Son illərdə Prezident İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə paytaxtın Nəsimi rayonu geniş quruculuq və yeniləşmə poliqonuna çevrilmiş, sosial-iqtisadi nailiyyətlər ildən-ilə yüksəlmişdir. Bu ilin birinci yarısı da nəsimililər üçün bütün sahələrdə uğurlu olmuşdur. Dövlət başçısının rəhbərliyi altında ərazidə gerçəkləşdirilən irimiqyaslı layihələr, nəhəng quruculuq işləri rayonun küçə və meydanlarının, park və istirahət güşələrinin, paytaxtın yaraşığı olan nadir tikililərin, iri yaşayış massivlərinin görkəmini daha da gözəlləşdirmiş, insanların rahatlığını müasir tələblər səviyyəsinə qaldırmışdır. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva vaxtaşırı bu layihələrin həyata keçirilməsinin gedişi ilə maraqlanmış, onların istifadəyə verilməsi mərasimlərində, habelə ümumrespublika əhəmiyyətli müxtəlif tədbirlərdə iştirak etmişlər.***

Bu ilin əvvəlindən rayonda geniş-miqyaslı quruculuq-abadlıq tədbirləri artan sürətlə davam etdirilmiş, yeni "abad həyət"lər istifadəyə verilmiş, geniş yaşıllaşdırma tədbirləri aparılmış, yollar, səkilər müasirləşdirilmiş, paytaxtın mərkəzi hissəsində gəliş-gedişi rahatlaşdırmaq üçün yeni kommunikasiyalar yaradılmışdır.

İyun ayının 25-də Prezident İlham Əliyev Yusif Səfərov küçəsinə paralel salınan yeni yolun açılışında iştirak etmişdir. Üç hərəkət zolaqlı yolun inşası zamanı layihəyə uyğun olaraq yolboyu maneələr sökülmüş, kommunikasiya xətləri köçürülmüş-dür. Piyadaların təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yolun hər iki tərəfində səkilər salınmış, müasir işıqlandırma direkləri qoyulmuşdur. Layihə çərçivəsində burada avtobus dayanacağı quraşdırılmışdır. Bü-tün işlər texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə, eyni zamanda, qısa vaxtda yerinə yetirilmişdir.

Yeni yol avtonəqliyyat

vasitələrinin birbaşa Yusif Səfərov küçəsinə daxil olmadan Heydər Əliyev prospektindən Kövkəb Səfərəliyeva küçəsinə, oradan da Dilarə Əliyeva küçəsilə şəhərin mərkəzinə doğru hərəkət etməsinə əlverişli imkan yaradır. Həmçinin Heydər Əliyev prospektindən gələn sürücülər Yusif Səfərov küçəsinə daxil olmadan metronun 28 May stansiyası və Heydər Əliyev Sarayı istiqamətinə rahat hərəkət edəcəklər. Beləliklə, bu yolun istifadəyə verilməsi Yusif Səfərov küçəsində tıxacların yaranmasının qarşısını alacaq.

Dövlət başçısının fərman, sərəncam və göstərişlərinin bütünlüklə yerinə yetirilməsi, dövlət proqramlarının, hökumət qərarlarının icra olunması, yerli təşəbbüslərdən qaynaqlanan müxtəlif tədbirlərin reallaşdırılması sosial- iqtisadi sahədə sürətli inkişafı təmin etmiş, bütün sahələrdə makroiqtisadi göstəricilər yüksəlmişdir. Rayon həyatının əksər sahələrində baş verən dəyişiklikləri əks etdirən nəticələr əvvəlki ilin mü-vafiq dövrünün göstəricilərini xeyli üstələmişdir.

Məsələn, sənaye sahəsinə nəzər salaq. Ev təsərrüfatlarında sənaye məhsulu istehsalı ilə məşğul olanla-rın, habelə hüquqi şəxs yaratma-dan fiziki şəxs kimi fəaliyyət göstərənlərin işi də nəzərə alın-maqla 278 milyon 955 min manat-lıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz cox sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Bunun 17 faizi məhsul istehsalının, 83 faizi isə sənaye xarakterli xidmətlərin payına düşür. Geyim istehsalı sahəsi üzrə ixtisaslaşan müəssisələrdə 6 mil-yon 32 min manatlıq məhsul istehsal edilmişdir. İstehlakçılara 281 milyon 10 min manatlıq və ya bütün sənaye istehsalının 100,7 faizi qədər məhsul göndərilmişdir.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr tərəfindən 165 milyon 800 min manatlıq xidmətlər göstərilmişdir. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 dəfə çoxdur.

Müəssisə və təşkilatlara, əhaliyə 145 milyon 910 min manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 dəfə çox rabitə xidməti göstərilmişdir. Xidmətlərin 95 faizi qeyri-dövlət rabitə müəssisələrinin payına düşür.

Rayonun tikinti kompleksində iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələri he-sabına 257 milyon 300 min manatlıq investisiya qoyulmuşdur.

Pərakəndə ticarət şəbəkəsindən əhaliyə 584 milyon 924,4 min manatlıq məbləğində və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 42 faiz çox istehlak malları satılmış-dır. Əmtəə dövriyyəsinin 99,8 faizi özəl sektordakı müəssisələrin payına

düşmüşdür. İstehlak məhsullarının 25,2 faizi hüquqi şəxslərin, 65,5 faizi hüquqi şəxs yaratmadan ticarət fəaliyyəti göstərən fərdi sahibkarların müəssisələrində, 9,3 faizi isə rayonun yarmarka və bazarlarında satılmışdır.

Hesabat dövründə xidmət müəssisələri tərəfindən əhaliyə 237 milyon 503 min manatlıq, yaxud 2016-cı ilin müvafiq dövrünün səviyyəsindən 10,8 faiz cox ödənişli xidmət göstərilmişdir. Ümumi həcmin 85,1 faizi hüquqi şəxslərin müəssisələrində əldə edilmiş və bu müəssisələrdə əhaliyə göstərilən pullu xidmətlər 202 milyon 290 min ma-natlıq olmuşdur. Həmin xidmətlərin 7 faizi dövlət müəssisələrinin, 93 faizi isə özəl bölmənin payına düşür.

Rayonun iqtisadi və sosial sahələrində muzdla işləyənlərin orta aylıq əmək haqqının səviyyəsi isə 143 faiz artaraq 613 manat olmuş-dur. Hesabat dövründə 1969 daimi iş yeri açılmışdır.

Cari ilin ilk yarısında 1149 do-ğum qeydə alınmış, rayonun əhalisi 220,1 min nəfərə çatmışdır. Daimi yaşamaq üçün rayona 167 nəfər gəlmiş, gedən isə qeydə alınmamış-dır. Əmək pensiyaçılarının sayı 24365 nəfər (5317 nəfəri işləyən, 19048 nəfəri isə işləməyən) təşkil edir. Bunlardan yaşa görə əmək pensiya-çıları 16966 nəfər, əlilliyə görə əmək pensiyaçıları 5356 nəfər, ailə başçısını itirməyə görə əmək pensiyaçıları isə 2043 nəfər təşkil edir.

Prezident İlham Əliyevin ölkədə sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin

artırılması, yeni iş yerlərinin açıl-ması, sərmayələrin cəlb edilməsi ilə bağlı tapşırıqlarının təmin olunma-sı məqsədilə Nəsimi Rayon İcra Hakimiyyətində yaradılmış xüsusi qərargah ötən müddət ərzində müva-fiq işlər həyata keçirmişdir.

Nazirlər Kabinetinin sosial-iq-tisadi inkişafın sürətləndirilməsinə dair əlavə tədbirlər barədə qərarına uyğun olaraq rayonda ilin əvvəlindən sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, mövcud şəhərsalma normalarına cavab verməyən, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının, sosial və digər qeyri-yaşayış obyektlərinin sökülərək yenidən qurulması, yeni yaşayış binalarının inşa olunması, əlavə iş yerlərinin açılması ilə bağlı işlər də davam etdirilmişdir. Belə ki, şəhərin ümumi görünüşünə xələl gətirən, qəzalı vəziyyətdə olan və möv-

cud şəhərsalma normalarına cavab verməyən 16206 nəfərin yaşadığı 5771 mənzildən ibarət 226 köhnə ya-şayış binasının və digər qeyri-yaşayış, sosial təyinatlı obyektlərin sökülərək yenidən qurulması üçün ərazilərə baxış keçirilmişdir. Sahibkarlar bu prosesə cəlb olunmuş və layihələrin müzakirəsi aparılmışdır. Bir sıra ünvanlar üzrə tikiləcək binaların ərazi planlaşdırma sənədləri və layihələri hazırlanmışdır.

Məşğulluq Mərkəzi sosial müdafiəyə ehtiyacı olanlara kvota-laşdırılmış iş yerləri yaratmaq və bununla da problemin mümkün qədər yüngülləşdirilməsi məqsədilə 2017-cı il üçün təsdiq edilmiş ərazi məşğulluq proqramını ardı-cıl gerçəkləşdirmişdir. Adıçəkilən mərkəz qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşı-ladırılması və məşğulluğunun artırıl-masına, onların sosial problemlərinin həllinə xüsusi diqqət göstərmişdir.

Gənclərin məşğulluğu və sosial müdafiəsinə, qadınların işlə təmin olunmasına və əmək bazarında rəqabətə davamlılığına kömək göstərilməsi də mərkəzin qarşısın-da duran başlıca vəzifələrdəndir. İlin əvvəlindən 310 nəfərə işsizlik müavinəti verilir.

Hesabat dövründə Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrufatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyevanın təşəbbüsü ilə başlanılmış "Məktəb bağları" layihəsi çərçivəsində Nəsimi Rayon İcra Hakimiyyəti iməciliklər təşkil etmişdir. Ümumrayon iməciliyi zamanı mövcud yaşıllıqlara qulluq göstərilmiş, yeni ağaclar əkilmişdir.

Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən Asif Məhərrəmov küçəsi ilə Moskva prospekti arasındakı məhəllələrarası ərazidə sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün baxımsız vəziyyətdə olan 1 hektardan çox sahədə genişmiqyas-lı abadlıq işləri aparılmış, mövcud ağaclar budanmış, yenidənqurma tədbirlərindən sonra istirahət parkı sakinlərin istifadəsinə verilmişdir.

Rayon Enerji Təchizatı və Sa-tışı İdarəsi hesabat dövründə rayon təsərrüfatının sabit enerji təchizatı ilə bağlı ardıcıl tədbirlər görmüş, şəbəkədə təmir işlərini davam etdirmiş, qəzaları operativ aradan qal-dırmış, yarımstansiyaların ərazisində abadlıq işləri aparmışdır.

Su-kanal İdarəsi əhali sektoru üzrə 65850, qeyri-əhali sektoru üzrə isə 7875 abonentə xidmət göstərir. Əhalinin 77,1 faizi, yəni 169 min nəfər sutka ərzində fasiləsiz və keyfiyyətli su ilə təmin olunur. 22,9 faiz abonentə isə məhəllədaxili nasos stansiyaları vasitəsi ilə 8 saat olmaqla hər gün səhər-axşam su verilir.

Hesabat dövründə rayonun istilik şəbəkəsinin 25 məhəllədaxili qazan-xanası və 19 istilik məntəqəsinin, habelə "RİQ-1"in fasiləsiz, keyfiyyətli istilik enerjisi istehsal etməsi üçün yaranan qüsurlar dərhal aradan qaldırılmışdır. Aprel ayının 15-dən isə 2016-2017-ci il payız--qış mövsümü başa çatmışdır. Qazanxa-



nalarda iş dayandırıldıqdan sonra istilik xətlərində hidravlik sınaq apa-rılmış, əsaslı və cari təmir işlərinə başlanılmışdır.

Nəsimi Rayon Fövqəladə Hallar və Mülki Müdafiə Şöbəsinin 2017-ci il üçün tədbirlər planı-na müvafiq olaraq, 6 ay ərzində planlaşdırılmış tədbirlər, əsasən, yerinə yetirilmişdir. Təhsil ocaq-larında, o cümlədən məktəbəqədər tərbiyə müəssisələrində nümunəvi baxış təlimləri keçirilmiş, mənzil-kommunal istismar sahələrinin ərazisində yaşayan, işləməyən əhali arasında fövqəladə hadisələrdən müdafiə sahəsində davranış qaydala-rına dair izahat işləri aparılmışdır.

Milli bayramların, tarixi günlərin, əlamətdar hadisələrin rəngarəng tədbirlərlə qeyd edilməsi yüksək siyasi- mədəni əhval-ruhiyyə yaratmış, rayon sakinlərinin qurub-yaratmaq əzmini və məmnunluğunu artırmışdır. Bakıda İslam Oyun-ları, "Formula" 1 yarışması, digər müxtəlif beynəlxalq tədbirlərin hazırlamasında və keçirilməsində mərkəzi rayon olan Nəsiminin əhalidə məmnunluq yaratmışdır. "İslam Həmrəyliyi ili" çərçivəsində "Multikultural dəyərlərimiz", "Milli-mənəvi dəyərlərimiz" , "Bizi birləşdirən milli-mənəvi dəyərlərimiz" mövzularında tədbirlər keçirilmişdir.

İlin əvvəlindən Nəsimi Rayon İcra Hakimiyyəti Başıçısı Apara-tı və sahə inzibati ərazi dairələri nümayəndəliklərində vətəndaşların yazılı və şifahi şəkildə təkliflər vermək, ərizə ilə müraciət etmək hüquqlarının həyata keçirilməsi üçün zəruri şərait təmin edilmişdir. Hesabat dövründə RİH Başçısı Aparatına vətəndaşların 1280 ərizə və müraciəti daxil olmuşdur.

Müraciətlərin məzmunu ilə kollektivləri və sakinləri yaxından iştirak etmiş, nümunə göstərmişlər. Rayonda yerləşən Heydər Əliyev adı-na İdman Arenasında cüdo, sərbəst və yunan-Roma güləşi üzrə yarışlar ke-çirilmişdir. Bu yarışlarda Azərbaycan idmançıları uğurla çıxış etmişlər.

Aprel döyüşlərinin ildönümü münasibətilə silsilə tədbirlər təşkil olunmuş, Azərbaycan Universitetində "Türk-müsəlman soyqırımı çağ-daş tədqiqatlarda" mövzusunda IV beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın anadan olmalarının 94-cü ildönümü ilə əlaqədar rayonda silsilə tədbirlər keçirilmiş, idarə, müəssisə və təşkilatlarda, elm, təhsil, həmçinin səhiyyə müəssisələrində onların əziz xatirəsi dərin hörmət və ehtiramla yad edilmişdir.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ərəfəsində Los-Anceles və San-Dieqo şəhərlərində Nəsimi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə silsilə tədbirlərin reallaşdırılması üçün RİH başçısının rəhbərliyi ilə 20 nəfərdən ibarət nümayəndə heyəti ABŞ-ın Kaliforniya ştatında səfərdə olmuş-dur. Azərbaycanla bağlı keçirilən tədbirlər Los-Anceles və San-Dieqo şəhərlərində pozitiv əks-səda doğur-muş, şəhər sakinlərinin geniş marağı-na səbəb olmuşdur.

Qələbə günü ilə bağlı rayonda-kı 1941-1945 abidəsinin yerləşdiyi parkda rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri və veteranların iştirakı ilə təntənəli tədbir keçirilmişdir.

28 May Respublika Günü münasibətilə "Yaşa Azərbaycan" adlı bayram tədbiri təşkil edil-mişdir. Ramazan bayramı, 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi və Beynəlxalq Ahıllar günləri münasibəti ilə rəngarəng tədbirlər keçirilmiş-dir. 15 İyun Milli Qurtuluş Günü və Silahlı Qüvvələrin yaradılmasının 99 illiyi rayonda böyük təntənə ilə qeyd edilmişdir.

Gənclər və İdman İdarəsi də rayonun sosial-mədəni həyatında gənclərin fəal iştirakını təmin etmiş, müxtəlif mövzulu bir sıra tədbirlər reallaşdırmışdır. Gənclərin hərbi vətənpərvərlik tərbiyəsində müstəsna əhəmiyyəti olan "Şahin" hərbi idman oyununun keçirilməsi daim diqqət mərkəzində saxlanılmışdır.

Nəsimi Rayon İcra Hakimiyyətinin nəzərdə tutdu-ğu silsilə tədbirlər çərçivəsində "Ölkəmizin dünyada siyasi və iqtisadi qüdrətinin möhkəmlənməsi dövlətimizin prioritet məqsədidir" mövzusunda sakinlərlə, Qarabağ müharibəsi veteranları, əlilləri və şəhid ailələri ilə keçirilən görüşlər bağlı aparılmış təhlillər göstərir ki, mənzil məsələləri, xüsusilə mənzil şəraitinin yaxşılaşdırılması və mənzil ilə təminolunma, şəhərsalma və təmir-tikintiyə aid ərizələr çox-luq təşkil etmişdir. Bu məsələlərlə bağlı vətəndaşların müraciətləri qanunvericiliklə nəzərdə tutulan qaydada cavablandırılmış və onlara müvafiq izahatlar verilmişdir.

Nəsimililər bugünlərdə Nazirlər Kabinetinin 2017-ci ilin 1-ci yarımilində ölkənin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyevin nitqindən irəli gələn vəzifələrin uğurla həyata keçirilməsi üçün geniş müzakirə apar-mış, qarşıdakı dövrdə yeni hədəfləri dəqiqləşdirmiş, bütün qüvvələri səfərbər etmişlər.

Nəsimi Rayon İcra Hakimiyyətinin yarımillik hesabatı əsasında hazırladı:

Tahir AYDINOĞLU,
"Xalq qəzeti"